Respublikanın ümumtəhsil məktəblərində ənənəvi “Son zəng” tədbirinin mütəşəkkil və səmərəli keçirilməsini təmin etmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. “Son zəng” tədbiri 31 may 2012-ci il tarixdə saat 10:00-dan başlayaraq üç saat müddətində yalnız müəssisənin ərazisində keçirilsin.

2. Ümumtəhsil məktəblərində təşkil olunan “Son zəng” tədbirində valideyn komitələri, valideyn-müəllim assosiasiyaları və ictimaiyyətin nümayəndələrinin iştirakı təmin edilsin.

3. Naxçıvan MR Təhsil Nazirliyi, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Gəncə Şəhər Təhsil İdarəsi, rayon (şəhər) təhsil şöbələri “Son zəng”in məzmunlu keçirilməsi ilə bağlı təşkilati işləri vaxtında başa çatdırsınlar, şagirdlərin təhlükəsizliyini təmin etmək məqsədilə zəruri tədbirlər görsünlər, bu tədbiri məzunların həyatında yadda qalan əlamətdar hadisəyə çevirmək üçün valideynlərlə pedaqoji kollektivin birgə səmərəli fəaliyyətinə nail olsunlar.

4. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmrin “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını təmin etsin.

5. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

***Misir Mərdanov***

***Azərbaycan Respublikasının təhsil naziri***

***25 may 2012-ci il***

***№ 971***